Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi

Bakı şəhəri 25 may 2017-ci il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənc alim və mütəxəssislərin 4-cü birgə qrant - "Mənim ilk qrantım" - müsabiqəsinin keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında **Elmin İnkişafı Fondu** (bundan sonra "Elmin İnkişafı Fondu" adlandırılacaqdır) və Azərbaycan Respublikası **Gənclər və İdman Nazirliyi** (bundan sonra "Gənclər və İdman Nazirliyi" adlandırılacaqdır) (bundan sonra hər iki qurum birlikdə "Tərəflər" adlandırılacaqdır) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və innovasiya xarakterli elmi-tədqiqat proqram və layihələrini və digər elmi tədbirləri dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan gənc alimlərin, bir elmi mövzunun (problemin müəyyən hissəsinin) tədqiqi məqsədi ilə gənc alimlər tərəfindən yaradılmış müvəqqəti yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən, elmi tədqiqatlarla əlaqəli digər qurumlarda (nazirliklərin nəzdindəki elmi-tədqiqat institutları, dövlət qurumları və s.) çalışan gənc alim və mütəxəssislərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədi ilə, ölkədə elmin inkişaf prioritetlərinə uyğun olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı və bu Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.3.2 bəndinə uyğun olaraq 2011-2015-ci illərdə Elmin İnkişafı Fondu tərəfindən keçirilmiş Gənc alim və mütəxəssislərin 1-ci, 2-ci və 3-cü qrant müsabiqələrinin uğurlarını, həmçinin Tərəflər arasında formalaşmış əməkdaşlıq əlaqələrini, iki qurum arasında 2017-ci il 22 may tarixində imzalanmış Protokolun müddəalarını nəzərə almaqla, 2017-ci ildə **Gənc alim və mütəxəssislərin 4-cü xüsusi - "Mənim ilk qrantım" - birgə qrant müsabiqəsini** (EİF/GAM-4-BGM-GİN-2017-3(29)) aşağıdakı şərtlər daxilində

ELAN EDİR:

**Layihələrin növləri və maliyyələşdirilmə həcmi:**

- fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələri;
- ölkənin sosial-mənəvi, elmi-texniki və iqtisadi inkişafı üçün əhəmiyyət kəsb edən regional və beynəlxalq səviyyəli gənc alim və mütəxəssislərin konfranslarının və digər elmi tədbirlərin Azərbaycan Respublikasında təşkili və keçirilməsi;
- 70 000 manatadək maliyyə həcmli layihələr.

**Müsabiqənin keçirilmə müddəti:**

- Müsabiqədə iştirak etmək üçün layihələr 2017-ci il 30 may tarixindən başlayaraq qəbul olunur;
- Müsabiqədə iştirak etmək üçün layihələrin qəbulunun son tarixi 2017-ci il 30 iyun saat 17:00-dır;
- Müsabiqənin nəticələrinin ekspertizanın bitmə tarixindən asılı olaraq, 2017-ci ilin payızında açıqlanması planlaşdırılır.

**Müsabiqənin prioritet istiqamətləri:**

- Elmi-tədqiqat layihələri Elmin İnkişafı Fondunun Təsnifatı üzrə müxtəlif elm sahələri və istiqamətlərini əhatə etməklə və layihənin təqdim olunduğu hər bir akademik, ali təhsil müəssisəsinin, elmi-tədqiqat institutunun elmi prioritetlərini əsas götürməklə təqdim olunmalıdır. Digər tərəfdən, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilən layihələrə də üstünlük veriləcəkdir.
- Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin elmi ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

**Maliyyə dəstəyi:**

- Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu;
- Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi.

**Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:**

- **Bu qrantlar yalnız ilk dəfə qrant üçün müraciət edən gənc alim və mütəxəssislərə veriləcəkdir. Elmin İnkişafı Fondunun əvvəlki (bitmiş) və cari qrant layihələrinin rəhbər və icraçıları bu müsabiqədə iştirak edə bilməzlər.**
- Elmin İnkişafı Fondu tərəfindən əvvəlki müsabiqələr üzrə maliyyələşdirilmiş və hal-hazırda maliyyələşdirilən, həmçinin digər fond və qurumlar tərəfindən maliyyələşdirilən mövzular üzrə layihələr müsabiqəyə qəbul olunmur.

- Bu qrantlar yalnız **Azərbaycan vətəndaşı olan və hal-hazırda ölkədə elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olan** gənc alim və mütəxəssislərindən təşkil olunmuş müvəqqəti elmi yaradıcı kollektivlər tərəfindən təqdim edilmiş layihələrə verilir.
- Qrant layihəsi ilə müsabiqədə iştirak etmək istəyən gənc alim və mütəxəssislər sənədlərin təqdimindən əvvəl kollektiv olaraq müzakirələr aparmalı, qrant layihəsinin mövzusunu, şərtlərini və digər müvafiq məsələləri qarşılıqlı şəkildə razılaşdırmalıdırlar.
- Müsabiqəyə təqdim edilən hər bir layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır.
- Müsabiqəyə gənc alim və mütəxəssislərdən təşkil olunmuş kiçik saylı (5 nəfərədək (layihə rəhbəri və icraçılar daxil) olmaqla) müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələri və konfrans təşkili üzrə layihələr qəbul olunur.
- Layihə rəhbəri və icraçılar təcrübəli, beynəlxalq əlaqələrə malik, ölkədə və xaricdəki elmi nəşrlərdə dərc olunmuş məqalələri olan alimlər olmalıdır.
- Layihənin icra müddəti 1 ildən artıq olmamalıdır.
- Elmi-tədqiqat qurumlarının planları üzrə mövzunun layihədə tam şəkildə təkrarlanmasına yol verilmir.
- **Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).**
- Müsabiqəyə qrant layihəsi EİF (http://sdf.gov.az) tərəfindən daxili müsabiqə qaydalarına əməl olunmaqla və müvafiq qaydada hazırlanmaqla təqdim olunmalıdır.
- Təqdim olunan layihələrin əsas bəndləri (layihənin adı, layihənin əsaslandırılması, icmal, həll olunacaq məsələlər, layihənin yerinə yetirilmə mərhələləri, gözlənilən nəticələr və s.) xüsusilə diqqətlə hazırlanmalıdır.
- Müvəqqəti yaradıcı kollektivin rəhbəri və icraçıları müəyyənləşdirilərkən Elmin İnkişafı Fondunun müsabiqələrinin keçirilmə Qaydalarının 2.1 və 2.3 bəndlərinin tələbləri nəzərə alınmalıdır:
  http://sdf.gov.az/development/uploads/musabiqenin_kecirilmesi_qaydalari/musabiqe_kecir_qaydalar.pdf
- Müsabiqəyə təqdim olunmuş layihələr EİF qaydalarına uyğun olaraq texniki və elmi ekspertiza mərhələlərindən keçir.
- Müsabiqənin nəticələrinə görə qalib gəlmiş layihənin rəhbəri ilə EİF arasında layihənin icrası üzrə müqavilə bağlanılır və AR Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilir.

Müsabiqədə iştirakın digər mühüm şərtləri:

- multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş;
- tətbiqi xarakterli;
- müxtəlif akademik və təhsil qurumlarından, sahə elmi-tədqiqat institutlarından olan alim və mütəxəssislər tərəfindən yerinə yetirilməsi planlaşdırılan elmi-tədqiqat mövzuları üzrə təqdim olunmuş layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük veriləcəkdir.

Digər şərtlər:

- Qrant layihəsi çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri-

maddi aktivlər və s.), iş və xidmətlər layihənin ümumi büdcəsinin 35%-dən artıq (vergi və rüsumlar daxil olmaqla), ezamiyyətlər isə 10%-dən artıq ola bilməz.

- Müsabiqəyə təqdim olunmuş və ya qalib olmuş layihələrlə bağlı layihə rəhbəri və icraçılardan başqa digər əlaqəli şəxslərin (gənc alim və mütəxəssislərin elmi rəhbərlərinin, məsləhətçilərinin, həmkarlarının, çalışdığı qurum rəhbərlərinin və b.) iradları qəbul olunmur. Tövsiyə olunur ki, mübahisəli məsələlər layihə müsabiqəyə təqdim olunanadək həll olunsun.

**Layihələrin tərtibatı və təqdim olunması:**

- Tərəflərin Birgə Komissiyası müsabiqənin keçirilməsi işini təşkil edir.
- Bu müsabiqəyə layihələr yalnız Elmin İnkişafı Fondunun yaratdığı innovativ texnologiya olan **"e-QRANT"="Qrant layihələrinin Elektron İdarəolunması Sistemi" (http://e-grant.sdf.gov.az/)** vasitəsilə təqdim edilə bilər. Bu sistem elektron-hökumət prinsipləri əsasında qurulmuşdur və **"ASAN-İmza"**dan istifadəni nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, "e-QRANT" sistemindən istifadə cari və sonrakı müsabiqələrdə iştirakı xeyli sadələşdirir və sənədləşmə işinin həcmini azaldır.

  Diqqət!
- "Asan-imza"nı həm layihə rəhbəri, həm də layihədə iştirakı nəzərdə tutulmuş bütün iştirakçılar əldə etməli, bu şəxslərin hamısı qeydiyyatdan keçməli və "virtual şəxsi kabinet"lərini formalaşdırmalıdırlar. Layihə bir qayda olaraq "e-QRANT" sistemində qeydiyyatdan keçmiş layihə rəhbəri tərəfindən təqdim edilir, layihə rəhbəri yalnız qeydiyyatdan keçmiş və "virtual şəxsi kabinet"ə malik şəxsləri layihəyə iştirakçılar qismində dəvət edə bilər. Əks halda elmi kollektivin formalaşdırılması mümkün olmayacaqdır.
- Texniki problemlərlə qarşılaşmamaq üçün layihənin təqdimini son günlərə saxlamamaq tövsiyə olunur. Fondun internet portalında "e-QRANT" sistemində qeydiyyatdan keçməklə bağlı müvafiq təlimat yerləşdiriləcək və məsləhət seminarlarında izahlar veriləcəkdir.
- "e-QRANT" sistemi vasitəsilə təqdim olunmuş layihənin son PDF versiyası (1 nüsxə Azərbaycan dilində və 1 nüsxə ingilis dilində olmaqla) **çap olunmaqla** Elmin İnkişafı Fondunun icraçı direksiyasına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) **həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək** birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə təqdim olunmalıdır. Çap versiyasının qəbulu üçün son tarix 2017-ci il 30 iyun saat 18.00-dır.
- Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər

elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda tanış olmaq olar.

**Ümumi şərtlər:**

– Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.
– Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.
– Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (AZ-1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur.
– Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində, e-QRANT sisteminə qoşulma və ondan istifadə üzrə, həmçinin qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır. Seminarlarda iştirak təqdir olunur.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı: *info@elmfondu.az*
**Elmin İnkişafı Fondunun icraçı direksiyası**